# Vahid əlaqələndirmə mərkəzlərinə 700-ə yaxın şəhid ailəsi üzvü və qazi müraciət edib

Bakıdakı DOST mərkəzlərindəki vahid əlaqələndirmə mərkəzlərinə ötən dövrdə Vətən müharibəsi şəhidlərinin ailə üzvləri, müharibədə xəsarət almış hərbi qulluqçular və müharibə əlillərindən ibarət 687 şəxs müraciət edib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Prezident İlham Əliyevin 2021-ci il 25 iyun tarixli fərmanı ilə yaradılan vahid əlaqələndirmə mərkəzlərində şəhid ailələri və qazilərə əmək, məşğulluq, sosial müdafiə, tibbi-sosial ekspertiza, reabilitasiya, müalicə, müayinə və s. sahələr üzrə 7 quruma aid 26 xidmət "bir pəncərə"dən, operativ və şəffaf şəkildə, vətəndaş rahatlığı və məmnunluğu prinsipi əsasında göstərilir.

İlkin mərhələdə mərkəzlər Bakıdakı DOST mərkəzlərində avqustun 23-dən fəaliyyətə başlayıb və indiyədək həmin mərkəzlərə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üzrə 84 müraciət, Müdafiə Nazirliyi üzrə 363 müraciət, Səhiyyə Nazirliyi üzrə 21müraciət, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti üzrə 46 müraciət, yerli icra hakimiyyəti orqanları üzrə 60 müraciət, İcbari Tibbi Sığorta Dövlət Agentliyi üzrə 20 müraciət, Dövlət Sığorta Kommersiya Şirkəti üzrə 93 müraciət daxil olub.

Xatırladaq ki, vahid əlaqələndirmə mərkəzləri:

- Yasamal, Səbail və Qaradağ rayonları üzrə 1 saylı Bakı DOST Mərkəzində (Yasamal rayonu, İ.Qutqaşınlı küçəsi, 86),
- Xəzər və Pirallahı rayonları üzrə 2 saylı Bakı DOST Mərkəzində (Xəzər rayonu, Şüvəlan qəsəbəsi, A.İldırım küçəsi, 30 b),
- Nizami, Xətai, Sabunçu və Suraxanı rayonları üzrə 3 saylı Bakı DOST Mərkəzində (Nizami rayonu, Heydər Əliyev prospekti, 183 b.),
- Binəqədi, Nəsimi və Nərimanov rayonları üzrə 4 saylı Bakı DOST Mərkəzində (Binəqədi rayonu, Ziya Bünyadov prospekti, 31-03) fəaliyyət göstərir.

Azərbaycan.- 2021.- 21 sentyabr.- S.2.